# Naxçıvan teatrının yaşılbaş sonası



**Kür qırağının əcəb seyrangahı var,**
**Yaşılbaş sonası heyf ki, yoxdur.**

**M.P.Vaqif**

***21 ildir ki, Naxçıvan teatrı Sonasız qalıb. 21 ildir ki, onun məlahətli səsinə həsrətik. Yoxdur Sona! Nə qədər ağrılı, nə qədər göynəmli bir ifadə. Teatra gedirsən, tamaşalara baxırsan sevinirsən, şadlanırsan, birdən yadına düşür ki, filan rolu Sona necə də gözəl oynayardı.***

Oynayardı! Deməli qismət deyilmiş. Tanrı tərəfindən Sonaya yalnız 36 il ömür yazılmışdı. Demək bu nisgilli ömrün 18 ili, 18 baharı yalnız səhnəyə həsr olunmalıydı. Ölümündən bir neçə il qabaq Azərbaycan Respublikasının əməkdar artisti fəxri adını almalıydı. Və 1985-ci ilin avqust ayının 27-də Naxçıvanda (əslən bakılıdır) dünyasını dəyişməliydi və vəsiyyətinə görə doğma Bakısında, əzizlərinin yanında torpağa tapşırılmalıydı. Bunlar hamısı oldu. Həyat yoldaşı, şöhrətli rejissor Azərbaycanın əməkdar artisti Vəli Babayev, sənət dostu görkəmli rejissor və aktyor Vaqif Əsədov və bu sətirlərin müəllifi Sonanın nəşini Bakıya aparmalıydıq və apardıq da. Üstündən heç dörd il keçməmiş Vəli Babayevi də (1989) itirdik. Sona Mirzəyeva da əlimizdən getdi, Vəli Babayev də. Biri 36 yaşında, digəri 44 yaşında. Biri gözəl aktrisaydı, digəri istedadlı, bacarıqlı rejissor. Sona xanım yayın bürkülü çağında, Vəli isə qışın tufanlı vaxtında dünyasını dəyişdilər.

Sona xanım Mirzəyeva Naxçıvan teatrı üçün tapıntıydı, ali təhsilli aktrisa idi. Bakıda Akademik Milli Dram Teatrında işləmişdi. Hələ tələbəykən Tofiq Kazımov onu teatra dəvət etmişdi. O sənət ocağına ki, Azərbaycan teatrının məbədgahı idi. Bu şöhrətli teatrda təkcə bircə rolunu (Sona xanım bu teatrda çox rollar oynamışdır) yada salacağam. Ə.B.Haqverdiyevin "Pəri cadu" faciəsində Pəri. Bu rol çox aktrisalara şöhrət gətirmişdir. Sona da bu aktrisaların yeni Pərisi idi. Yeni səs, yeni ifa. Yeni görüm və yeni səhnə təfsiri. Və səhnədə ilk debüt. Alqışlar onun ünvanına yağdıqca Sonanın qəlbində bahar çiçəkləri açırdı.

Nə romantik bir axşam. Sevincdən çırpınan bir qızcığaz ürəyi. Sabaha açılan ümidli, pənahlı yollar... Qırmızı, sarı, mavi, yaşıl işıqlar və sabahın yeni-yeni lirik, romantik, dramatik rolları...Sona üçün bunlar bəlkə də ötəri, şirin xəyallar idi. Amma xəyallar artıq arxada qalmışdı. Pərinin gözəl yatımlı və orijinal ifası xəyalları gerçəkliyə çevirdi. Pəri rolu Sonaya əməlli-başlı xeyir-dua verdi.

... Yollara iz düşürdü və bu yaşıllı izlərdə, sarı, qırmızı, mavi işıqların əhatəsində bir aktrisa yetişirdi. Sona adında, Mirzəyeva soyadında. Hələ çoxlu-çoxlu və bir-birindən rəngarəng obrazlar düzümü onun yolunu gözləyirdi. Və bu yol gur işıqlığa doğru gedirdi. İrəvan yolu, Naxçıvan yolu hələ qarşıdaydı. Cavidlə, Cabbarlıyla, Puşkinlə, Çexovla, Anarla, Əkrəm Əylisliylə, Rüstəm İbrahimbəyovla, Nazim Hikmətlə, Orxan Kamalla, Haldun Tanerlə, Paolo Messina ilə...görüşlər Sona xanımın yolunu gözləyirdi. Və bir-birindən uğurlu, əlvan biçimli insan xarakterləri. Biri dramatik, biri lirik, biri romantik.

İllər gəlib keçdi, Sona xanım bir müddət İrəvan Azərbaycan Dövlət Dram Teatrında çalışdı; maraqlı rollarıyla nəzərlərdə diqqətləndi. Elə bu teatrda rejissor Vəli Babayevlə tanış oldu (Vəli Babayev Naxçıvan teatrında işləyirdi, amma tez-tez İrəvan teatrına tamaşa qoymağa dəvət olunurdu). Bu tanışlıq ailə məhəbbətinə səbəb oldu və onlar evləndilər. Vəli özüylə bərabər Sonanı Naxçıvan teatrına gətirdi, gözəl aktrisamızın Naxçıvan günləri başladı.

Sonalı günlər, Sonalı rollar naxçıvanlı sənətsevərlərə nə qədər romantik sevinclər, lirik duyğular aşıladı. Naxçıvan səhnəsində bir-birindən fərqli obrazlar düzümü yaratdı. Biri romantik, biri dramatik, birisə lirik. H.Cavidin "Şeyx Sənan" mənzum dramındakı Zəhra Sonanın ən yaddaqalımlı, ən unudulmaz səhnə surətlərindən birinə çevrildi. Adətən belə duyğulu, belə hissli rolları aktrisa gözəl ifa edirdi. Gözəl Zəhra - S.Mirzəyeva eşq girdabında inildəyir, Şeyx Sənan onun üçün müqəddəs bir varlıqdır. O, bütün vardığıyla bu ülviyyətli insana bağlıdır. Şeyx Sənanla görüş səhnələrində aktrisa necə də məlahətli və təsirliydi. Zəhranın keçirdiyi hissləri, narahatlıqları Sona xanım ustalıqla rəsm edirdi. Bu obraz onun səhnə ömürlüyündə yaşadı və bu gün də Sona xanımın yadigarı Zəhra gözəl hisslərlə, sevərliklə xatırlanır.

Bu gün göy qübbəsinin altında yoxdur Sona xanım Mirzəyeva. Yoxdur və heç bir zaman olmayacaq. Bizlər, onu sevərlər həmişə Sonanı yalnız sevərli və duyğulu rollarıyla yada salacağıq, xatırlayacağıq. Xatırlayacağıq ki, belə bir bacarıqlı aktrisamız olub. Bakı, İrəvan və Naxçıvan teartrlarında maraqlı rollar silsiləsi yaradıb. Bir gün Zəhra oynayıb, bir gün Nazan oynayıb, bir gün Zemfira oynayıb, bir gün Nərgiz oynayıb, bir gün Flaviya oynayıb, bir gün Pəri oynayıb...sadəcə oynamayıb, sadəcə səhnəyə çıxmayıb, yaratdığı obrazların, qəribə-qəribə taleli insanların ömürlərini yaşadıb səhnədə. Əməlli-başlı sevdirib onları tamaşaçılarına. Beləcə yaşayıb, beləcə ömür edib səhnədə. Yanıb-qovrulub.

Orxan Kamalın "Yad qızı" tamaşasında zavallı və kimsəsiz Nazan Sona xanımın ifa təqdimində necə də yanımlıydı. Son vaxtlar bu rolu oynayanda ağır və ümidsiz xəstəliyə düçar olmuşdu. Zavallı bilmirdi xəstəliyini. Ancaq səhnədə elə bil ki, öz taleyini oynayırdı. Tamaşanın sonunda Nazan dərd və ələmlər içərisində həyatla vidalaşırdı. Çox gözəl xatırlayıram Sona xanımın bu anlardakı yanıqlı ifasını. Hardasa Nazanın taleyi onun ömür taleyinə oxşayırdı. Nazan - S. Mirzəyeva səhnədə can verirdi, həyatda isə Sona ömür taleyinin son aylarını yaşayırdı. Həkimlər həyat yoldaşı Vəliyə demişdilər ki, axır aylarını yaşayır. Vəli də bir dost kimi, bir yaxın həmdəm, sirdaş kimi bu sirri mənə demişdi.

Bircə onu bilirəm ki, Sona xanım səhnədən əl çəkmək istəmirdi. Ağrılı-acılı, göynəmli-göynəmli səhnəyə çıxırdı. Bir neçə dəfə onu bu halda səhnədə görmüşəm. Axı heç kim bilməsə də, duymasa da mən ki, bilirdim onun sağalmaz və ümidsiz dərdini. Ürək ağrıya-ağrıya, qəlbim sızlaya-sızlaya onun səhnədəki rollarına baxırdım. İlahi, bu necə də ağır bir dərdiydi mənimçün. Amma dözürdüm və hər dəfə də məndən soruşanda ki, necə oynadım sanki, dünya başıma fırlanırdı. Hər dəfə də deyirdim ki, əladan-əladır. Doğrudan da gözəl oynayırdı, buna söz ola bilməzdi. Axı mən bilirdim onun sağalmaz dərdisərini. Və məni də narahatlaşdıran məhz bu idi.

Rəhmətlik bir dəfə məndən soruşdu ki, niyə sən mənimlə danışanda gözlərin dolur. Fikirləşmədən cavab verdim ki, o qədər gözəl oynayırsan ki, istər-istəməz gözlərim dolur. Bu sözümdən sifətinə qəribə bir təbəssüm qondu.

Yaşamaq istəyirdi Sona, yaratmaq istəyirdi və qəlbindən o qədər şirin-şirin arzular keçirdi ki...Südabə oynamaq qəlbindən keçirdi. Axı Hüseyn Cavidə vurğun idi. C.Cabbarlının Gültəkini, Cavidin Afətini, Xavərini, S.Vurğunun Xuramanını, Məryəmini...oynamaq istəyirdi. Bu arzu-diləkləri içərisində yalnız Zəhra ("Şeyx Sənan") rolunu oynamaq ona qismət oldu. Və gözəl də yaratdı bu səhnə surətini. Hələ nə qədər belə obrazlar yaradacaq idi səhnədə. Qismət olmadı. Yarımçıq qaldı arzuları və özüylə bərabər apardı haqq dünyasına oynanılmamış obrazlarını.

İki balası vardı Sona xanımın. Nicat və Hikmət adında, indi maşallah böyüyüblər. Anaları öləndə lap balaca idilər. Yazıq Vəli elə hey deyirdi bunları Sonasız, anasız necə saxlayacağam. Bunları deyəndə nə yazıq ki, özü də bilmirdi ki, düz 4 ildən sonra Nicatla Hikmət atadan da məhrum olacaqlarr. Hələ bunları bilmirdi Vəli və ağrılı-acılı günlərini, Sonasız anlarını yaşayırdı.

Sona yox idi həyatda. Naxçıvan teatrı da Sonasız yaman yetim görünürdü. Amma hər tamaşaya baxanda gözlər Sonanı axtarırdı. Naxçıvan teatrının yüz illik təntənəsi (1987) Sonasız keçdi. Xalq artisti fəxri adı Sonasız qaldı. (Sona Mirzəyeva əməkdar artist kimi bizləri tərk etdi. Ölümündən altı il sonra Azərbaycanda müstəqillik bərqərar oldu).

Sənədləri hazırlanırdı ki, Azərbaycan Ali Sovetinə deputat seçilsin. Qismət olmadı. "Azərbaycanfilm" kinostudiyası sınaq çəkilişlərinə çağıracaq idi, bu da taleyinə yazılmadı. Nicatın, Hikmətin toylarını görmədi. Təzə mənzil almışdılar, içərisində doyunca oturmadı, deyib-gülmədi. Bu di bir nisgil, bu da bir kədər. Bu da Sonanın son faciəsi.

Sona Mirzəyeva da, ömür-gün yoldaşı Vəli Babayev də bizləri erkən tərk etdilər. Sona 36 yaşında, Vəli 44 yaşında. Sona 60-dən çox rol oynadı, qədim Naxçıvan teatrının yaşılbaş Sonası oldu, Vəlisə 60-dan çox tamaşanın rejissoru oldu. Tale elə gətirdi ki, qəbirləri qoşa, yanaşı olmadı. Sona Bakıda (əslən bakılıydı) torpağa tapşırıldı, Vəlisə Naxçıvanda.

Bu gün Sona xanım yoxdur. Tanrısına qovuşub. 21 ildir tamarzı qalmışıq ona, səsini eşitmirik. Amma bəzi yadigarları qalıb. Televiziyanın, radionun fonetekalarında, bəzi qəzet-jurnalların solğun səhifələrində. Və bir də xoş və şirin xatirələri qalıb yaddaşlarda.

Naxçıvan teatrından çox köçəri quşlar köçüb getdi. Sona da payız durnalarından biriydi. Uçub getdi, getdi isti ölkələrə, yenidən bizlərlə görüşmək üçün.

...Ömrün baharı olduğu kimi, payızı da, nisgili də var. Sonanın da payızlı, xəzanlı günləri başlandı və günlərin bir günündə, 36 yaşında köçəri durnalar kimi köçüb getdi. Nisgilli, ələmli, kədərli, dərdli. Oynadığı rollar kimi. Naxçıvan teatrının yaşılbaş Sonası əlimizldən getdi. Barı o dünyada səadətli günlərini yaşasın.

**Cəlil VƏZİROV,**
***Rəsul Rza adına Beynləxalq ədəbi mükafatın laureatı, teatrşünas-publisist***